# DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU
# PUBLİK HÜQUQİ ŞƏXS

**31 dekabr 2022-ci il tarixində**
**tamamlanan il üzrə**
**Konsolidə edilmiş Maliyyə Hesabatları**
**və Müstəqil Auditorların Rəyi**

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Müstəqil auditorların rəyi | 3 |
| Konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 6 |
| Konsolidə edilmiş əməliyyatlar haqqında hesabat | 7 |
| Konsolidə edilmiş daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlər haqqında hesabat | 8 |
| Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 9 |
| Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 10 |
| Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər | 11 |

"KPMG Audit Azərbaycan" MMC
Port Baku Cənub Qülləsi
Neftçilər prospekti, 153
Bakı, Azərbaycan AZ1010
+994 12 404 89 10

# Müstəqil Auditorların Rəyi

## Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsin İdarə Heyətinə

### Şərti rəy

Biz Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsin və onun törəmə şirkətinin ("Fond") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə əməliyyatlar, daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, hesabatımızın *Şərti rəy üçün əsas* bölməsində təsvir olunan məsələlərin mümkün təsirləri istisna olmaqla, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Fondun 31 dekabr 2022-ci il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Beynəlxalq Mühasibat Uçotu Standartları Şurasının dərc etdiyi MHBS Standartlarına (MHBS Standartları) uyğun olaraq düzgün əks etdirir.

### Şərti rəy üçün əsas

Biz 31 dekabr 2022-ci il tarixinə 4,754,910,520 AZN və 31 dekabr 2021-ci il tarixinə 3,358,813,228 AZN məbləğində olan dövlət büdcəsindən öhdəliklərin icrası üzrə debitor borcu və müvafiq dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsaitlərin Fond tərəfindən müvafiq hesablamalarını əldə etdik. Hesablamaların təsdiq edilməsi üçün Azərbaycan Respublikası Maliyyə Nazirliyinə müraciət ünvanlasaq da, auditin gedişatı zamanı müraciətimizə cavab əldə edə bilmədik. Biz dövlət büdcəsindən öhdəliklərin icrası üzrə debitor borcu, müvafiq dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsaitlər və daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlər barəsində alternativ üsullarla məlumat əldə edə bilmədik. Nəticədə, biz dövlət büdcəsindən öhdəliklərin icrası üzrə debitor borcunun, dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsaitlərin və daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlərin ölçülməsi və təqdimatı üzrə 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatın tərkib hissəsini təşkil edən əlaqəli elementlərə və həmin tarixdə tamamlanan il üzrə əməliyyatlar, daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlara düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

1(c) saylı Qeyddə təsvir olunduğu kimi, Fond 31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixlərinə Naxçıvan MR DSMF-i faktiki nəzarəti həyata keçirməsi əsası ilə konsolidə etmişdir. Lakin biz müvafiq qanunlar, əsasnamələr və fondların nizamnamələrindən Fond tərəfindən Naxçıvan MR DSMF üzərində səlahiyyətin mövcudluğu barədə sübut əldə edə bilmədik. Nəticədə, biz bu məsələ ilə bağlı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlara əsasən bizim məsuliyyətimiz hesabatımızın *"Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti"* bölməsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) *(IESBA Məcəlləsi)* və Azərbaycan Respublikasında konsolidə edilmiş maliyyə hesabatlarının auditinə tətbiq olunan etik tələblərə əsasən Fonddan müstəqilik və bu tələblər və IESBA Məcəlləsi üzrə digər etik öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu şərti auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.



Müstəqil auditor "KPMG Audit Azərbaycan" MMC Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmışdır və məsuliyyəti zəmanətlə məhdudlaşdırılmış ingilis şirkəti olan "KPMG International Limited" şirkətinə bağlı müstəqil üzv şirkətlər şəbəkəsinin üzvüdür.

## Digər məlumatlar

Rəhbərlik digər məlumatlara görə məsuliyyət daşıyır. Digər məlumatlar 55-61-ci səhifələrdəki Əlavə maliyyə məlumatı bölməsinə daxil edilmiş məlumatlardan ibarətdir.

Konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı rəyimiz digər məlumatları əhatə etmir və biz həmin məlumatlar üzrə hər hansı əminlik forması ifadə etmirik.

Konsolidə edilmiş maliyyə hesabatlarının auditi ilə əlaqədar olaraq, bizim məsuliyyətimiz digər məlumatları oxumaqdan və onları oxumaqla, digər məlumatların konsolidə edilmiş maliyyə hesabatlarına və ya audit zamanı əldə etdiyimiz biliklərə əhəmiyyətli dərəcədə uyğun olub-olmadığını və ya digər formada əhəmiyyətli şəkildə təhrif edilib-edilmədiyini nəzərə almaqdan ibarətdir.

Gördüyümüz işlərə əsasən, qeyd olunan digər məlumatlarda əhəmiyyətli təhrifin olduğu qənaətinə gəldiyimiz halda, biz bu fakt barədə məlumat verməliyik. Hesabatımızın *Şərti rəy üçün əsas* bölməsində təsvir olunduğu kimi, biz 31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci il tarixlərinə dövlət büdcəsindən öhdəliklərin icrası üzrə debitor borcu, müvafiq dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsaitlər və daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlər barəsində yetərli audit məlumatı əldə edə bilmədik. Bununla yanaşı, biz müvafiq qanunlar, əsasnamələr və fondların nizamnamələrindən Fond tərəfindən Naxçıvan MR DSMF üzərində səlahiyyətin mövcudluğu barədə sübut əldə edə bilmədik. Müvafiq olaraq, bu məsələlər ilə bağlı digər məlumatların əhəmiyyətli təhrif edilib-edilmədiyi barədə nəticə çıxara bilmədik.

## Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Standartlarına uyğun hazırlanmasına və düzgün təqdimatına, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin müşahidə olunmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün öz qənaətinə əsasən zəruri saydığı daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Fondu likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Fondun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

## Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur, lakin bu BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində yarana bilər və istifadəçilərin bu konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda, yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir

BAS əsasında aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mühakimə yürüdür və peşəkar inamsızlığımızı qoruyub saxlayırıq. Biz həmçinin:

— Dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, konsolidə edilmiş maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq audit sübutunu əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər.

— Auditlə bağlı daxili nəzarətə Fondun daxili nəzarət sisteminin səmərəliliyinə dair rəyin bildirilməsi üçün deyil, şəraitə uyğun zəruri audit prosedurlarının planlaşdırılması məqsədilə baxırıq.

— İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların kafiliyini qiymətləndiririk.

— Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilmiş audit sübutları əsasında Fondun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması qənaətinə gəldiyimiz halda, audit rəyimizdə konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət cəlb etməliyik, bu cür açıqlamalar qeyri-dəqiq olduğu halda isə fərqli rəy verməliyik. Gəldiyimiz nəticələr audit rəyimizin hazırlandığı tarixədək əldə edilmiş sübutlara əsaslanır. Bununla belə, sonrakı hadisələr və ya şərait Fondu fasiləsiz fəaliyyətini dayandırmağa məcbur edə bilər.

— Açıqlamalar da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

— Konsolidə edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Fond daxilində müəssisələr və ya kommersiya fəaliyyəti haqqında maliyyə məlumatına dair yetərli müvafiq audit sübutu əldə edirik. Biz qrup auditinin istiqaməti, belə auditə nəzarət və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz öz audit rəyimizə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı idarəetməyə məsul şəxsləri məlumatlandırırıq.

Hazırkı müstəqil auditorlar hesabatının hazırlanması ilə nəticələnmiş audit tapşırığının rəhbəri:

"KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti KPMG "KPMG Audit Azerbaijan" Limited Liability Company

Mələk Abbaslı
"KPMG Audit Azərbaycan" MMC
Bakı, Azərbaycan Respublikası
9 fevral 2024-cü il

**KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 31 dekabr 2022 | 31 dekabr 2021 təkrar təqdim edilmiş* | 1 yanvar 2021 təkrar təqdim edilmiş* |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Əmlak, tikili və avadanlıqlar | 19 | 44,950,239 | 49,911,052 | 54,155,407 |
| Qeyri-maddi aktivlər | 20 | 2,095,161 | 2,212,731 | 2,439,923 |
| Dövlət büdcəsindən öhdəliklərin icrası üzrə debitor borcu | 21 | 4,754,910,520 | 3,358,813,228 | 2,401,121,484 |
| Sair investisiyalar | 22 | 1,861,786 | - | - |
| **Uzunmüddətli aktivlər** | | **4,803,817,706** | **3,410,937,011** | **2,457,716,814** |
| Mal-material ehtiyatları | 18 | 1,353,888 | 867,077 | 493,667 |
| Sair aktivlər | | 262,383 | 183,287 | 224,083 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 17 | 1,100,893,924 | 590,703,474 | 261,225,058 |
| **Cari aktivlər** | | **1,102,510,195** | **591,753,838** | **261,942,808** |
| **Cəmi aktivlər** | | **5,906,327,901** | **4,002,690,849** | **2,719,659,622** |
| **Kapital** | | | | |
| Nizamnamə kapitalı | 23 | 5,000,000 | 5,000,000 | 5,000,000 |
| Əlavə kapital | 24 | 25,077,957 | 25,077,957 | 25,077,957 |
| Ümumi fond | | 22,218,980 | (2,141,287) | 2,549,143 |
| **Cəmi kapital** | | **52,296,937** | **27,936,670** | **32,627,100** |
| **Öhdəliklər** | | | | |
| Dövlət öhdəliklərinin icrası üzrə alınacaq vəsaitlər | 21 | 4,754,910,520 | 3,358,813,228 | 2,401,121,484 |
| Borc öhdəlikləri | 25 | - | 237,634 | 834,920 |
| **Uzunmüddətli öhdəliklər** | | **4,754,910,520** | **3,359,050,862** | **2,401,956,404** |
| Borc öhdəlikləri | 25 | 237,634 | 597,286 | 594,391 |
| Daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlər | | 1,069,589,740 | 590,327,807 | 253,674,030 |
| Sair öhdəliklər | 26 | 29,293,070 | 24,778,224 | 30,807,697 |
| **Cari öhdəliklər** | | **1,099,120,444** | **615,703,317** | **285,076,118** |
| **Cəmi öhdəliklər** | | **5,854,030,964** | **3,974,754,179** | **2,687,032,522** |
| **Cəmi kapital və öhdəliklər** | | **5,906,327,901** | **4,002,690,849** | **2,719,659,622** |

* Səhvlərin düzəldilməsi ilə əlaqədar təkrar təqdimat üçün 31-ci Qeydə baxın.

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**
**KONSOLİDƏ EDİLMİŞ ƏMƏLİYYATLAR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNƏ**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| | Qeyd | 2022 | 2021 təkrar təqdim edilmiş* |
|---|---|---|---|
| Dövlət icbari şəxsi sığorta üzrə alınmış vəsaitlər | 7 | 38,580,393 | - |
| Sair gəlirlər | 9 | 89,319,995 | 67,718,925 |
| Dövlət icbari şəxsi sığorta üzrə ödənişlər | 7 | (9,320,214) | - |
| Köhnəlmə və amortizasiya | 19 | (5,042,840) | (6,268,943) |
| Əməkhaqqı, maaş və əlaqəli ödənişlər | 8 | (74,291,023) | (55,341,093) |
| Ümumi inzibati xərclər | 8 | (11,284,637) | (9,329,116) |
| Sair (xərclər)/gəlirlər, xalis | 10 | (3,601,407) | (1,470,203) |
| **İl üzrə yekun nəticə** | | **24,360,267** | **(4,690,430)** |

* Səhvlərin düzəldilməsi ilə əlaqədar təkrar təqdimat üçün 31 saylı Qeydə baxın.

**Rəhbərlik tərəfindən:**

**Himalay Məmişov**
**İdarə Heyətinin sədri**

**Ramil İbrahimov**
**Mühasibat uçotu departamentinin müdiri**

6 fevral 2024-cü il
Bakı, Azərbaycan Respublikası

6 fevral 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Əməliyyatlar haqqında konsolidə edilmiş hesabat maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən və 11-54-cü səhifələrdə təqdim olunan qeydlərlə birgə oxunmalıdır.

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**
**KONSOLİDƏ EDİLMİŞ DAXİLOLMALAR ÜZRƏ İSTİFADƏ EDİLMƏMİŞ VƏSAİTLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNƏ**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| AZN | Qeyd | Qalıq 1 yanvar 2022 | Daxilolma | Ödəniş | Qalıq 31 dekabr 2022 |
|---|---|---|---|---|---|
| Məcburi Dövlət Sosial Sığorta haqları (sığorta kapitalının artırılması, qanunvericliyin tələblərinin pozulması və s. daxil olmaqla) | 11 | - | 4,588,677,368 | - | - |
| Məcburi Dövlət Sosial Sığorta haqlarının saxlanma xərclərinin maliyyələşməsinə yönəldilməsi | 9 | - | - | (89,319,995) | - |
| Sanatoriya-kurort yollayışlarının dəyərinin ödənişi | | - | 2,069,177 | - | - |
| Dövlət büdcəsindən daxil olan transfer | 21 | - | 1,131,967,169 | - | - |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayırmalar | 26.3 | - | - | (3,204,208) | - |
| Dövlət büdcəsinə ayırmalar | 26.2 | - | - | (971,509) | - |
| Əhaliyə ödənişlərlə bağlı xərclər (pensiya və müavinətlər) | 12,13 | - | - | (5,083,746,512) | - |
| Sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirləri xərci | 6.2 | - | - | (21,500,000) | - |
| Pensiya və müavinətlərin əhaliyə çatdırılma xərcləri | 14 | - | - | (20,861,638) | - |
| DOST agentliyinin müştərək maliyyələşdirilməsi xərci | 15 | - | - | (30,000,000) | - |
| Sair daxilolmalar (ödənişlər) | 16 | - | 6,152,081 | - | - |
| **İl üzrə cəmi əməliyyatlar** | | **590,327,807** | **5,728,865,795** | **(5,249,603,862)** | **1,069,589,740** |

| AZN | Qeyd | Qalıq 1 yanvar 2021 | Daxilolma | Ödəniş | Qalıq 31 dekabr 2021 |
|---|---|---|---|---|---|
| Məcburi Dövlət Sosial Sığorta haqları (sığorta kapitalının artırılması, qanunvericliyin tələblərinin pozulması və s. daxil olmaqla) | 11 | - | 3,851,954,752 | - | - |
| Məcburi Dövlət Sosial Sığorta haqlarının saxlanma xərclərinin maliyyələşməsinə yönəldilməsi | 9 | - | - | (67,718,925) | - |
| Sanatoriya-kurort yollayışlarının dəyərinin ödənişi | | - | 1,972,851 | - | - |
| Dövlət büdcəsindən daxil olan transfer | 21 | - | 1,307,408,256 | - | - |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayırmalar | 26.3 | - | - | (2,803,556) | - |
| Dövlət büdcəsinə ayırmalar | 26.2 | - | - | (847,461) | - |
| Əhaliyə ödənişlərlə bağlı xərclər (pensiya və müavinətlər) | 12,13 | - | - | (4,717,014,800) | - |
| Sanatoriya-kurort müalicəsi və sağlamlaşdırma tədbirləri xərci | 6.2 | - | - | (20,500,000) | - |
| Pensiya və müavinətlərin əhaliyə çatdırılma xərcləri | 14 | - | - | (17,026,392) | - |
| DOST agentliyinin müştərək maliyyələşdirilməsi xərci | 15 | - | - | (15,000,000) | - |
| Sair daxilolmalar (ödənişlər) | 16 | - | 16,229,052 | - | - |
| **İl üzrə cəmi əməliyyatlar** | | **253,674,030** | **5,177,564,911** | **(4,840,911,134)** | **590,327,807** |

**Rəhbərlik tərəfindən:**

**Himalay Məmişov**
**İdarə Heyətinin sədri**
6 fevral 2024-cü il
Bakı, Azərbaycan Respublikası

**Ramil İbrahimov**
**Mühasibat uçotu departamentinin müdiri**
6 fevral 2024-cü il
Bakı, Azərbaycan Respublikası

Daxilolmalar üzrə istifadə edilməmiş vəsaitlər haqqında konsolidə edilmiş hesabat maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən və 11-54-cü səhifələrdə təqdim olunan qeydlərlə birgə oxunmalıdır.

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**
**KONSOLİDƏ EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXDƏ BAŞA ÇATAN İL ÜZRƏ**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| AZN | Nizamnamə | Əlavə kapital | Kapital ehtiyatı | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il tarixinə qalıq, əvvəl təqdim edilmiş** | **5,000,000** | **25,077,957** | **256,223,173** | **286,301,130** |
| Səhvlərin düzəldilməsinin təsiri (Qeyd 31) | - | - | (253,674,030) | (253,674,030) |
| **1 yanvar 2021-ci il tarixinə qalıq, təkrar təqdim edilmiş** | **5,000,000** | **25,077,957** | **2,549,143** | **32,627,100** |
| İl üzrə yekun nəticə | - | - | (4,690,430) | (4,690,430) |
| **İl üzrə cəmi əməliyyatlar** | - | - | **(4,690,430)** | **(4,690,430)** |
| **31 dekabr 2021-ci il tarixinə qalıq, təkrar təqdim edilmiş** | **5,000,000** | **25,077,957** | **(2,141,287)** | **27,936,670** |
| İl üzrə yekun nəticə | - | - | 24,360,267 | 24,360,267 |
| **İl üzrə cəmi əməliyyatlar** | - | - | **24,360,267** | **24,360,267** |
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **5,000,000** | **25,077,957** | **22,218,980** | **52,296,937** |

Kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən və 11-54-cü səhifələrdə təqdim olunan qeydlərlə birgə oxunmalıdır.

**DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU PUBLİK HÜQUQİ ŞƏXS**
**KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ**
*(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan Manatı ilə ifadə edilir)*

| **Əməliyyat fəaliyyətindən pul vəsaitləri** | **Qeyd** | **2022** | **2021** |
|---|---|---|---|
| Məcburi Dövlət Sosial Sığorta haqları (sığorta kapitalının artırılması, qanunvericliyin tələblərinin pozulması və s. daxil olmaqla) | 11 | 4,588,677,368 | 3,851,954,752 |
| Sanatoriya-kurort yollayışlarının dəyərinin ödənişi | | 2,069,177 | 1,972,851 |
| Əhaliyə ödənişlərlə bağlı xərclər (pensiya və müavinətlər) | 12,13 | (5,083,746,512) | (4,717,033,889) |
| Funksional fəaliyyət üzrə sair ödənişlər | | (77,798,887) | (57,452,715) |
| Dövlət icbari şəxsi sığorta üzrə alınmış vəsaitlər | 7 | 38,580,393 | - |
| Dövlət icbari şəxsi sığorta üzrə ödənişlər | 7 | (9,320,214) | - |
| İşsizlikdən sığorta haqqları daxil olan | 26.1 | 169,380,489 | 141,615,450 |
| İşsizlikdən sığorta haqqları köçürülən | 26.1 | (164,140,000) | (147,000,000) |
| Əməkhaqqı, maaş və əlaqəli ödənişlər | 8 | (74,192,613) | (55,240,591) |
| Ümumi inzibati xərclər | 8 | (11,429,385) | (9,465,759) |
| Dövlət büdcəsindən daxil olan transfer | 21 | 1,131,967,169 | 1,307,408,256 |
| Sair daxilolmalar (ödənişlər), xalis | | 6,301,502 | 16,327,028 |
| **Əməliyyat fəaliyyəti ilə bağlı xalis pul vəsaitləri** | | **516,348,487** | **333,085,383** |
| | | | |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitləri** | | | |
| Əmlak, tikili və avadanlıqların alınması | 19 | (3,165,562) | (2,959,581) |
| Qeyri-maddi aktivlərin alınması | 20 | (532,435) | (52,994) |
| Sair investisiyalar | 22 | (1,861,786) | - |
| **İnvestisiya fəaliyyəti ilə bağlı xalis pul vəsaitləri** | | **(5,559,783)** | **(3,012,575)** |
| | | | |
| **Maliyyə fəaliyyətindən pul vəsaitləri** | | | |
| Borcların ödənilməsi | 25 | (598,254) | (594,392) |
| **Maliyyə fəaliyyəti ilə bağlı xalis pul vəsaitləri** | | **(598,254)** | **(594,392)** |
| **Pul vəsaitləri və onun ekvivalentlərində xalis artım** | | **510,190,450** | **329,478,416** |
| 1 yanvar tarixinə pul vəsaitləri və onların ekvivalentləri | | 590,703,474 | 261,225,058 |
| **31 dekabr tarixinə pul vəsaitləri və onların ekvivalentləri** | | **1,100,893,924** | **590,703,474** |

Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən və 11-54-cü səhifələrdə təqdim olunan qeydlərlə birgə oxunmalıdır.